# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 31 may saat 00:00-dək uzadılsın.

2. Müəyyən edilsin ki, xüsusi karantin rejimi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən edilmiş bütün məhdudiyyətlər, tələblər və rejimlər bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş müddət ərzində öz qüvvəsini saxlayır.

3. 2020-ci il 4 may saat 00:00-dan etibarən:

3.1. "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2020-ci il 2 aprel tarixli 120 nömrəli Qərarının 3-cü hissəsi ilə fəaliyyəti qadağan edilmiş iş və xidmət sahələrinin fəaliyyəti aşağıdakı qaydada bərpa olunsun:

3.1.1. ticarət və ictimai iaşə obyektləri üzrə:

1. Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində - bütün ticarət obyektləri (iri ticarət mərkəzləri istisna olmaqla):

2. digər inzibati ərazi vahidlərinin ərazisində - bütün ticarət və ictimai iaşə obyektləri, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər;

3.1.2. bərbərxanalar, gözəllik salonlarının fəaliyyəti, kosmetik xidmətlərin göstərilməsi (o cümlədən, bu sahələrdə müştərinin evində və ya digər məkanlarda xidmət);

3.2. aşağıdakı inzibati ərazi vahidlərinin ərazisində nəqliyyat vasitələrinin (ictimai nəqliyyatla sərnişindaşıma istisna olmaqla) rayonlararası və şəhərlərarası sərbəst hərəkəti təmin edilsin:

3.2.1. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu;

3.2.2. digər inzibati ərazi vahidlərinin ərazisi (Gəncə və Lənkəran şəhərlərinin ərazisi istisna olmaqla);

3.3. xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlər, audit, hüquqi, konsaltinq xidmətləri və sahibkarlıq subyektlərinə təqdim edilən bu kimi digər iş və xidmətlər);

3.4. "DOST" mərkəzlərində aşağıdakı dövlət xidmətlərinin göstərilməsi xüsusi karantin rejiminin xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən etdiyi qaydada elektron növbə alınmaqla təmin edilsin:

3.4.1. sosial ödənişlərlə bağlı hazır bank kartlarının vətəndaşlara təqdim edilməsi;

3.4.2. ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə əlaqədar maddi-məişət şəraitinin müayinəsi.

4. "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli 120 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissədə “4 may” sözləri “31 may” sözləri ilə əvəz edilsin;

4.2. 3.1-ci bənddə “bu Qərarın 4.6-cı bəndində göstərilənlər istisna olmaqla, digər ticarət obyektlərində (ticarət mərkəzləri daxil olmaqla)” sözləri “Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində ticarət mərkəzlərində (həmin ticarət mərkəzlərində yerləşən müştəri ilə təmasda olmayan obyektlər istisna olmaqla)” sözləri ilə əvəz edilsin;

4.3. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.4. masaj və hamam xidmətləri;”;

4.4. 4.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“4.6. pərakəndə və topdan satış üzrə:

4.6.1. Azərbaycan Respublikasının ərazisində bütün ticarət obyektləri (ticarət mərkəzləri istisna olmaqla);

4.6.2. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisi istisna olmaqla, digər inzibati ərazi vahidlərinin ərazisində ictimai iaşə obyektləri, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər;”;

4.5. aşağıdakı məzmunda 4.12-ci və 4.13-cü bəndlər əlavə edilsin:

“4.12. bərbərxanalar, gözəllik salonlarının fəaliyyəti, kosmetik xidmətlərin göstərilməsi (o cümlədən, bu sahələrdə müştərinin evində və ya digər məkanlarda xidmət).”;

4.13. xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlər, audit, hüquqi, konsaltinq xidmətləri və sahibkarlıq subyektlərinə təqdim edilən bu kimi digər iş və xidmətlər).”.

5. “Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 31 mart tarixli 122 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissədə “4 may” sözləri “31 may” sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərara 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qeyri-iş günlərində işlərin davam etdirilməsi zəruri olan fəaliyyət sahələrinin Siyahısı”nın 5-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“5. Pərakəndə və topdan satış üzrə:

5.1. Azərbaycan Respublikasının ərazisində bütün ticarət obyektləri (ticarət mərkəzləri istisna olmaqla);

5.2. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisi istisna olmaqla, digər inzibati ərazi vahidlərində ictimai iaşə obyektləri, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər.";

5.3. aşağıdakı məzmunda 11-ci və 12-ci hissələr əlavə edilsin:

"11. Bərbərxanalar, gözəllik salonlarının fəaliyyəti, kosmetik xidmətlərin göstərilməsi (o cümlədən, bu sahələrdə müştərinin evində və ya digər məkanlarda xidmət).";

12. Xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlər, audit, hüquqi, konsaltinq xidmətləri və sahibkarlıq subyektlərinə təqdim edilən bu kimi digər iş və xidmətlər).".

6. "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci hissədə "4 may" sözləri "31 may" sözləri ilə əvəz edilsin;

6.2. aşağıdakı məzmunda 1.13-cü bənd əlavə edilsin:

"1.13. Bu Qərarın tələbləri Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisinə şamil olunur.".

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 1 may 2020-ci il

№ 163